## Dünya azərbaycanlılarının həmrəyliyi günü münasibəti ilə Azərbaycan Respublikası Milli Məclisinin Müraciətinin təsdiq edilməsi haqqında

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN QƏRARI

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**
Dünya azərbaycanlılarının həmrəyliyi günü münasibəti ilə Azərbaycan Respublikası Milli Məclisinin Müraciəti təsdiq edilsin.

**Azərbaycan Respublikası Milli Məclisinin sədri**
**M. ƏLƏSGƏROV**

Bakı şəhəri, 27 dekabr 2002-ci il
№ 411-IIQR.

## Dünya azərbaycanlılarının həmrəyliyi günü münasibəti ilə Azərbaycan Respublikası Milli Məclisinin

## MÜRACİƏTİ

Əziz həmvətənlərimiz!

Dəyərli soydaşlarımız!

Yer kürəsinin müxtəlif guşələrində yaşayan soydaşlarımızın milli-mənəvi bütövləşmə arzusunun təcəssümü olan 31 dekabr — Dünya azərbaycanlılarının həmrəyliyi günü ümummilli məqsədlərimizin gerçəkləşməsi üçün dil, əqidə və əməl birliyini möhkəmləndirməyə və inkişaf etdirməyə çağırış məqamıdır. Yüz illərin tarixi çarpışmalarının və ictimai-siyasi qovğalarının dünyanın hər yerinə səpələdiyi qardaş və bacılarımız üçün bu məqam azərbaycançılıq, müstəqillik və dövlətçilik amalları uğrunda milli həmrəyliyə nail olmağın zaman göstəricisidir.

Dünya azərbaycanlılarının ümummilli lideri möhtərəm Heydər Əliyevin təşəbbüsü ilə on bir il əvvəl 31 dekabrın həmrəylik günü elan edilməsi ən yeni tariximizin möhtəşəm siyasi hadisələrindən olmaqla, bir-birindən ayrı düşmüş soydaşlarımızın milli mənlik şüuru əsasında sıx birləşməsi prosesinin başlanğıcını qoymuşdur.

Bu günün rəsmi qəbulundan sonra ilk dəfə olaraq dünya azərbaycanlılarının 2001-ci il noyabrın 9-10-da Bakıda keçirilmiş I qurultayı xalqımızın həyatında müstəsna əhəmiyyətli tarixi hadisəyə çevrildi. Milli qayəmizin həyata keçirilməsi işinə təkan vermiş bu qurultay göstərdi ki, bütün dünya azərbaycanlılarının ümid və istinad yeri olan Azərbaycan Respublikasının daha da güclənməsi və qüdrətlənməsi üçün milli həmrəyliyin möhkəmləndirilməsi soydaşlarımızın həyat amalına çevrilməkdədir.

Qurultaydan ötən bir il ərzində dünya azərbaycanlılarının tarixi Vətənlə əlaqələrini gücləndirmək məqsədi ilə konkret addımlar atılmış, Azərbaycan

Respublikasının Prezidenti cənab Heydər Əliyevin fərmanı ilə xaricdə yaşayan azərbaycanlılarla iş üzrə ayrıca dövlət qurumu yaradılmışdır. Bu bir daha sübut edir ki, dünya azərbaycanlılarının həmrəyliyinə və yekdilliyinə nail olmaq yönündə görülən işlər artıq dövlət siyasətinin üzvi tərkib hissəsi olmuşdur.

Azərbaycan xalqı həm sayına, həm də milli-mənəvi, intellektual potensialına görə dünyanın böyük millətləri ilə bir sırada dayanır. Tarix boyu Şərqin bir çox qüdrətli dövlətləri xalqımızın yaradıcılıq enerjisi və zəkası üzərində qurulub inkişaf etmişdir. XX yüzillikdə Azərbaycan xalqı dəfələrlə tarixi ədalətsizliyə məruz qalsa da, əsrin əvvəllərində qurduğu müstəqil dövlətini qoruyub saxlaya bilməsə də, azadlıq ruhunu daim ürəyində yaşadaraq, əsrin sonlarına yaxın öz müqəddəs istəyinə yenidən qovuşmuşdur. Ən böyük nemət olan dövlət müstəqilliyini «əbədi, dönməz və sarsılmaz» etmək üçün çətinliklərə mərdliklə sinə gərmiş, ümummilli liderin ətrafında sıx birləşərək, bədxah düşmənlərin məkrli niyyətini gözlərində qoymuş, bütün fitnə-fəsadlara baxmayaraq Azərbaycan adlı dövləti məhv olmaq təhlükəsindən qurtara bilmişdir.

Bu gün dünya dövlətləri sırasında özünə layiq yer tutan Azərbaycan Respublikasının sabit və ardıcıl inkişaf yolunda qazandığı uğurlar bütün dünya azərbaycanlılarını qəlbən sevindirir. Azərbaycanda hüquqi, demokratik, dünyəvi dövlət qurulması, vətəndaş cəmiyyəti yaradılması, bazar iqtisadiyyatının bərqərar edilməsi, mədəni həyatın dirçəlməsi dünyanın hər bir guşəsində yaşayan azərbaycanlıların ürəyindən xəbər verir.

Azərbaycan Respublikası bütün dünya azərbaycanlılarının ümid və istinad yeri, ata-baba yurdu olduğuna görə Avropanın, Amerikanın, Asiyanın, Afrikanın, Avstraliyanın müxtəlif bölgələrində yaşayan soydaşlarımız doğma Vətəndə baş verən ictimai-siyasi prosesləri diqqətlə izləyir, gənc dövlətimizin milli mənafelərə uyğun olan müstəqil daxili və xarici siyasət yeritməsindən məmnunluq duyurlar. Onlar respublikamızın ərazi bütövlüyünün bərpa olunacağı, 1 milyondan çox qaçqın və köçkünlərimizin doğma yurdlarına dönəcəyi günü səbirsizliklə gözləyirlər. Qarabağ problemi bütün millətimizin dərdi olduğuna görə bu bəlanın aradan qaldırılmasına elliklə kömək göstərməliyik. Ona görə də bu gün hansı qitədə, hansı məkanda yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlının Vətən qarşısında övladlıq borcu müstəqil dövlətimizin siyası, iqtisadi, sosial və mədəni inkişafı yolunda ən böyük maneə olan bu problemin həllinə öz töhfəsini verməkdən ibarətdir. Milli dövlətçiliyimizin əbədi olaraq davam etməsi, Azərbaycan Respublikasının dünyanın qabaqcıl və inkişaf etmiş ölkələri sırasında, azadlıq və firavanlıq şəraitində daim irəliləməsi dünya azərbaycanlılarının birliyindən və mütəşəkkilliyindən çox asılıdır.

Əziz həmvətənlərimiz!

Dəyərli soydaşlarımız!

Sizi ümummilli məqsədlərimizin gerçəkləşməsi naminə birliyə və həmrəyliyə çağırır, xalqımızın hüquq və mənafelərinin qorunması uğrunda mübarizəyə səsləyirik. Dünya azərbaycanlılarının həmrəyliyi günü münasibəti ilə hamınızı ürəkdən təbrik

edir, hər birinizə əmin-amanlıq, səadət, doğma Azərbaycanımıza qələbə müjdələri və nurlu gələcək arzulayırıq!

Hörmətlə,

***Azərbaycan Respublikasının Milli Məclisi***

***(Müraciət Azərbaycan Respublikası Milli Məclisinin 2002-ci il 27 dekabr tarixli iclasında qəbul edilmişdir)***